# Sinifdənxaric tədbirlər zamanı yuxarı sinif şagirdlərində fəal vətəndaşlıq mövqeyinin formalaşdırılması

**Emilya Hüseynova**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent,*
*elmlər doktoru proqramı üzrə dissertant,*
*ARTPİ*
**E-mail:** emilya.huseynova95@gmail.com

**Rəyçilər:** ped.ü.e.d., prof.A.N. Abbasov,
ped.ü.f.d. L.A. Məmmədli

**Açar sözlər:** sinifdənxaric tədbirlər, yuxarı sinif şagirdi, vətəndaşlıq, vətəndaşlıq mövqeyi, fəal vətəndaşlıq mövqeyi, fəal vətəndaşlıq mövqeyinin formalaşdırılması

**Ключевые слова:** внеклассные мероприятии, старшеклассник, гражданство, гражданская позиция, активная гражданская позиция, формирование гражданской позиции

**Key words:** extra-curricular activities, senior pupil, citizenship, civil position, active citizenship, formation of citizenship

Yeni pedaqoji təfəkkür şəraitində vətəndaşlıq tərbiyəsinin aktuallığı artır. Bu məsələ ümumtəhsil məktəbinin təlim-tərbiyə sistemində xüsusi yer tutur. Vətəndaşlıq mövqeyinin formalaşdırılmasının müxtəlif məsələləri hazırda həm sosial-fəlsəfi (L.M. Arxangelski, S.Ç. İkonnikova, İ.S. Kon, V.T. Lisovski, V.N. Lifanov, Q.L. Smirnova, İ.M. Tatiltseva, V.N. Şepeiyov Q.N. Filonov, və s.) hüquqi (N.M. Kazımov, Ə.Ə. Ağayev, B.H. Əliyev, A.N. Abbasov, A. Kərimov, Q.P. Davıdov, E.V. İsvestnova, T.V. Korçagina, L.V. Lazarov, A.F. Nikitin, V.M. Obuxov, N.V. Sokolov, D.S. Yakovleva), pedaqoji (K.D. Uşinski, A.S. Makarenko, V.A. Suxomlinski, E.V. Bondarevskaya, Z.İ. Vasilyeva, B.Z. Vulfov, O.S. Qazman, V.B. Qorelik, V.A. Karakovski, Q.İ. Kokorina, E.İ. Monoszon, B.T. Lixaçeva), psixoloji (Ə.S. Bayramov, Ə.Ə. Əlizadə, R.İ. Əliyev, M.Ə. Həmzəyev, B.Q. Ananyev, L.İ. Boloviç, S.L. Rubinşteyn, S.M. Qodnik, K.Q. Kurbanov, A.A. Rean) mövqeyini tədqiqata cəlb etmişlər.

Həmin əsərlərdə təhsilalanların vətəndaşlıq mövqeyinin formalaşdırılmasının məqsədlərinə və vəzifələrinə xidmət edən təlim-tərbiyənin təşkilinin metodoloji əsasları öz ifadəsini tapmışdır.

Hazırda O.İ. Volojina, B.Z. Vulfov, V.A. Karakovski, L.V. Kuznetsova, R.L. Rojdestvenskaya, B.K. Senina, İ.L. Sudakova, L.L. Xorujaya, Ş.V. Şmaçilina, E.E. Çepurnı bu istiqamətdə öz tədqiqatlarını davam etdirirlər.

Tədqiqatları təhsilalanlarda vətəndaşlıq keyfiyyətlərinin formalaşdırılmasına yönəlmiş və mənəvi şüur və davranışın formalaşdırılmasının formalaşdırılması təhlil olunan pedaqoq və psixoloqların əsərləri bizim tədqiqatdan ötrü böyük əhəmiyyətə malikdir. E.V. Bondarevski, A.N. Leontyev, İ.S. Maryenko, V.İ. Slobodçikovun əsərləri qeyd oluna bilər.

Vətəndaşlıq mövqeyi əhatəli, bitki, son dərəcə vacib olan, şəxsiyyətin həm özü, həm ailəsi, həm də cəmiyyət üçün vacib və faydalı olan bir keyfiyyətdir. Vətəndaşlıq mövqeyini insanın, təhsilalanların keyfiyyətlərinin məcmusu, davranışının motivləri, dünyagörüşünün və həyata baxışının sistemi kim başa düşmək mümkündür. Vətəndaşlıq mövqeyi şəxsiyyətin ideya

inamını və əqidəsini müəyyənləşdirir, mənəvi-ruhi-əxlaqi, fiziki müdafiəsinə şərait yaradır, onda yüksək səviyyədə inkişaf edərək formalaşmış vətəndaşlıq borcu və məsuliyyəti meydana gətirir, cəmiyyətin rifahı, ölkəsinin tərəqqisi, Vətəninin müdafiəsi naminə fəaliyyət göstərməsini təmin edir, onu cəmiyyətə və dövlətə qarşı hər hansı bir şəkildə baş verə biləcək təzahürlərlə mübarizəyə səfərbər edir. Vətəndaşlıq mövqeyi dövlət mülkiyyətinə, ölkəmizin maddi və mənəvi sərvətlərinə, insanlarına, təbiətin florasına və faunasına qayğılı münasibəti tələbata çevirir.

Apardığımız tədqiqatdan, müşahidə və sorğulardan, yuxarı sinif şagirdlərinin "vətəndaşlıq mövqeyi" anlayışına münasibətindən görünür ki, tərbiyənin əsas prinsiplərindən, o cümlədən təlim-tərbiyə işinin, təlimdən sonra həyata keçirilən tədbirlər zamanı tətbiq olunan fəal vətəndaşlıq mövqeyi tərbiyəsində məqsədaydınlığı; fəal vətəndaşlıq mövqeyi tərbiyəsinin həyatla, əməklə və Azərbaycan Respublikasının quruculuğu ilə əlaqələndirilməsi; yuxarı sinif şagirdlərinin yaş xüsusiyyətlərinin nəzərə alınması; yuxarı sinif şagirdlərinə münasibətdə tələblərdə vahidliyin gözlənilməsi; yuxarı sinif şagirdlərinin fərdi xüsusiyyətlərin nəzərə alınması; tərbiyədə sistemlilik, ardıcıllıq və fasiləsizlik; tərbiyədə hörmət və tələbkarlıq; yuxarı sinif şagirdlərinin müsbət cəhətlərinə istinadən qüsurlarının aradan qaldırılması (nikbinlik); tərbiyə prosesinə kompleks yanaşma; kollektivdə, kollektivin köməyilə və kollektiv üçün tərbiyə kimi mühüm prinsiplərindən səmərəli istifadə müsbət nəticələr verir. X-XI sinif şagirdlərinin ictimai tapşırıqlarla əhatə olunmaları onların sosial fəallığını artırır. Bu isə, fəal vətəndaşlıq mövqeyinin təşəkkül tapıb formalaşması üçün vacib şərtdir. Yuxarı sinif şagirdləri sinifdənxaric tədbirlərin təşkili və həyata keçirilməsində fəallıq göstərir, onlarda təşkilatçılıq, təşəbbüskarlıq, icraçılıq qabiliyyətləri, yaradıcı fəallıq inkişaf edir.

Sinifdənxaric tədbirlərlə əhatə olunan şagirdlər tərəfindən Azərbaycan Respublikasının Konstitusiyası tərəfindən müəyyən edilmiş öz vətəndaşlıq hüquq və vəzifələrini yaxşı anlayırlar.

Eksperimentə cəlb etdiyimiz X-XI siniflərdə sinifdənxaric tədbirlər zamanı müəllimlər təkcə şagirdlərin mənəvi, hüquqi və siyasi xüsusiyyətlərini öyrənməklə öz fəaliyyətlərini məhdudlaşdırmır, aşağıdakı məsələləri də diqqət mərkəzində saxlayırdılar:

— şagirdin daxil olduğu sosial rola münasibətini;
— fəaliyyətə hazırlıq səviyyəsini;
— fəaliyyətin motivlərini və s.
— fəaliyyətin xarakterini (yaradıcı, yaxud icraçılıq);
— onun iştirak etdiyi fəaliyyət növünü;

Yuxarı sinif şagirdlərinə şəxsi vətəndaşlıq məsuliyyəti hissinin aşılanması kollektivdə onların mövqeyinin düzgün qurulmasından xeyli dərəcədə asılıdır.

Şagirdlər fəal vətəndaşlıq mövqeyinə malik olmaq üçün, hər şeydən əvvəl özünütərbiyəyə, mənəvi şüura yiyələnməlidirlər.

Apardığımız tədqiqatlar göstərir ki, düzgün vətəndaşlıq baxışlarının və əqidənin formalaşdırılmasına, vətəndaşlıq davranış vərdişlərinin qazanılmasına yönəldilmiş aşağıdakı tədbirlər sinifdənxaric işin səmərəliliyini təmin edir:

— tematik söhbətlərin, mühazirə və axşamların məzmununa müxtəlif tarixi dövrlərdə vətəndaşlıq mövqeyi anlayışının mahiyyətini aydınlaşdıran materialların daxil edilməsi;

— hüquqi lektoriyaların və hüquq tərbiyəsi üzrə məşğələlərin keçirilməsi zamanı formalaşan yeni sosial-iqtisadi cəmiyyət şəraitində Azərbaycan Respublikasının Konstitusiyasının öyrənilməsi, hüquq və vəzifələrin müqayisəli təhlilinin aparılması, onlara münasibətin bildirilməsi;

— yüksək vətəndaşlıq borcuna malik şəxsləri səciyyələndirən məlumatları, hadisələri yada salmaq;

— X-XI sinif şagirdlərində dövlətçilik, qanunçuluq, hüquq qaydaları, Azərbaycan vətəndaşlarının hüquq və vəzifələri məsələləri üzrə elmi anlayışların formalaşdırılması məqsədi ilə işin aparılması;

— kütləvi informasiya vasitələrindən (qəzet, jurnal, televiziya, radio) istifadə etmək və s.

Tədqiqat göstərir ki, şagirdlərdə fəal vətəndaşlıq mövqeyinin səmərəli şəkildə formalaşdırılması təlim prosesi ilə sinifdənxaric tədbirlərin sıx əlaqəsini, varisliyin gözlənilməsini tələb edir. Bu sahədə sözlə işin, şüurla davranışın vəhdəti vacib şərtdir.

Prof. A.N. Abbasov sinifdənxaric işə aşağıdakı tərifi vermişdir: sinifdənxaric iş dedikdə, təlimdənkənar vaxtlarda pedaqoji kollektiv üzvlərinin (sinif rəhbərləri, fənn müəllimləri, kitabxanaçı, şagird təşkilatları, məktəb ictimai təşkilatları, valideyn komitəsi, məktəb həkimi və b.) və məktəb rəhbərlərinin, bir sıra hallarda ailə və ictimaiyyət nümayəndələrinin və b. yaxından köməyilə müxtəlif təşkilatı formalarda aparılan təlim-tərbiyəvi tədbirlərdir (324).

Biz həmin tərifi bir qədər də dəqiqləşdirə bilərik. Fikrimizcə, sinifdənxaric iş dedikdə, təlimdənkənar vaxtlarda I növbədə oxuyan şagirdlərlə dərsən sonra, II növbədə oxuyan şagirdlərlə dərsdən əvvəl sinif rəhbərlərinin, fənn müəllimləri, şagird təşkilatları, kitabxanaçı, məktəb psixoloqu, uşaq birliyi, məktəb gənclər təşkilatı, şagird özünüidarə orqanları valideyn komitəsi, məktəb həkimi və b.) və məktəb rəhbərlərinin, bəzən ictimaiyyət nümayəndələrinin və b. təşkil etdikləri, təhsilləndirici, tərbiyələndirici və inkişafetdirici səciyyə daşıyan tədbirlər başa düşülməlidir.

Təlim prosesinə nisbətən sinifdənxaric tədbirlər müəyyən xüsusiyyətləri ilə seçilir. Aşağıdakı xüsusiyyətləri qeyd oluna bilər:

1. Sinifdənxaric iş könüllü xarakterə malik olması.
2. Müxtəlif yaş dövründə olan və müxtəlif siniflərdə təhsil alanların iştirak etməsi.
3. Sinifdənxaric tədbirlər üçün məkan, yer məhdudluğunun olmaması.
4. Sinifdənxaric tədbirlərin mövzusunun və təşkili formasının məktəblilərin, o cümlədən yuxarı sinif şagirdlərinin marağına, arzu, istək və təşəbbüsünə əsasən təşkil olunması və həyata keçirilməsi.
5. Sinifdənxaric işlərin sinif rəhbərlərinin, məktəbin dərsdənkənar tədbirlər planlarında özünə yer alması.
6. Sinifdənxaric tədbirlərin təşkili və həyata keçirilməsi zamanı şagirdlərin təşəbbüskarlığının, təşəbbüskarlığının, müstəqilliyinin nəzərdə tutulması, onlara meydan verilməsi.
7. Sinifdənxaric işlərin məktəblilərdə, o cümlədən X-XI sinif şagirdlərinin mənəvi keyfiyyətlərinin inkişafı, onlarda fəal vətəndaşlıq mövqeyinin formalaşdırılması üzün zəmin yaratması, imkanlar açması.
8. Ayrı-ayrı tədbirlərin maraqlı və cəlbedən olması üçün yeri gəldikcə g müsabiqə, yarış və oyundan, əyləncəli vəziyyətlərin yaradılmasından, viktorina, bədii özfəaliyyət kollektivinin çıxışından faydalanma.
9. Sinifdənxaric işin təhsilləndirici, tərbiyələndirici və inkişafetdirici vəzifələri yerinə yetirməsi.
10. Sinifdənxaric tədbirlərin kəmiyyət göstəricilərindən daha çox keyfiyyət göstəricilərinin diqqət mərkəzində olması.

Fəal vətəndaşlıq mövqeyinin formalaşdırılmasına nail olmaq üçün sinifdənxaric işin Heydər Əliyev oxuları, dövlət xadimlərinin həyat və fəaliyyəti ilə tanışlıq, bayramların qeyd

olunması, 20 yanvar, müstəqillik gününün, tarixi bayramların qeyd edilməsi, söhbət, məruzə, disput, müzakirə, müsabiqə, görüş, axşam, dəyirmi masa, viktorina, şagird konfransı, divar qəzetinə məqalə yazmaq; təbiətə, kino-teatrlarına, konsert salonlarına, muzeylərə, dövlət dram teatrlarına gedişlər, oyunlar, yarış, ekskursiya, qiyabi səyahətlər, Şəhidlər xiyabanına, Fəxri xiyabana və s. bu kimi formalarından istifadə etmək faydalıdır.

**Məqalənin aktuallığı.** Sinifdənxaric tədbirlər zamani yuxarı sinif şagirdlərində fəal vətəndaşlıq mövqeyinin formalaşdırılması cəmiyyətimizin inkişafının müasir mərhələsində son dərəcə aktuallıq daşıyır.

**Məqalənin elmi yeniliyi.** Sinifdənxaric tədbirlər zamani yuxarı sinif şagirdlərində fəal vətəndaşlıq mövqeyinin formalaşdırılması kimi mühüm məsələ tədqiqata cəlb edilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Sinifdənxaric tədbirlər zamani yuxarı sinif şagirdlərində fəal vətəndaşlıq mövqeyinin formalaşdırılmasında pedaqoji kollektivlərə öz köməyini göstərə bilər.

## Ədəbiyyat

A.N. Abbasov. Pedaqogika: Dərs vəsaiti. Bakı: Mütərcim, 2013.

**Э. Гусейнова**

## Формирование активной гражданской позиции старшеклассников во время внеклассных мероприятий

### Резюме

Эффективность формирования активной гражданской позиции учеников требует тесной связи обучения с внеклассными мероприятиями и соблюдения преемственности. В этой области важным условием является единство слова с делом и разума с поведением. Исследования показывают, что мероприятия, направленные на формирование правильных гражданских взглядов и на приобретение навыков гражданского поведения обеспечивают эффективность внеклассной работы. В статье рассмотрены данные задачи и описаны особенности внеклассных мероприятий.

**E. Hüseynova**

## Formation of active civic position of senior pupils during extracurricular activities

### Summary

The effectiveness of forming an active civic position of students requires a close connection between teaching and extra-curricular activities and the observance of continuity. In this area, an important condition is the unity of the word with the deed and the mind with behavior. Studies show that activities aimed at the formation of proper civic views and the acquisition of civil behavior skills ensure the effectiveness of extracurricular work. The article